Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# "Gənclərimizin vətənpərvər fəaliyyəti fərəh və qürurverici haldır"

## Vüqar Nuriyev: "Milli düşüncə və şüur yüksəldikcə vətənpərvərlik ruhu da artır"



**Gənclik hər bir millətin inkişafının təməl daşıdır. Məhz bu səbəbdən bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı, intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir, onların cəmiyyətdə təsdiq olunmaları üçün şərait yaradır.**

İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə Vətəni sevmək deyil. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir və inkişaf edir. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, təhsil müəssisələrinin ən vacib vəzifələrindən olub. Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və ona həyati əhəmiyyətli məsələ kimi baxıb. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir.

Sevindirici haldır ki, bu gün ölkəmizdə fəaliyyət göstərən çoxlu sayda gənclər təşkilatları yetişməkdə olan nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda vətənpərvərlik hisslərinin artırılması istiqamətində təqdirəlayiq addımlar atırlar. Bu məqsədlə yaradılan Vətənpərvər Gənclər Klubunun fəaliyyəti də alqışlanmalıdır.

Müsahibimiz **Vüqar Nuriyev** Yeni Azərbaycan Partiyası Ağsu Rayon Təşkilatı nümayəndəsi olaraq bu gün ciddi siyasi fəaliyyət yönündə səylə çalışmaqdadır. Universitet və aspiranturanı fərqlənmə ilə bitirdikdən sonra karyerasında uğur-inkişaf əldə edib. Deyir ki, bilik, bacarıq, sağlam düşüncə, sadiq-sədaqətli prinsiplər, zəhmət və əzm sayəsində bir addım öndə olan cəmiyyət üzvləri sırasında olmaqdan fərəh duyur. O, hazırda Vətənpərvər Gənclər Klubunun İdarə heyətinin üzvüdür.

> "Dövlətçiliyə sadiq və sədaqətli gənclər yetişməsi üçün milli mənlik şüurunun inkişaf etdirilməsi mütləqdir"

***-Vüqar müəllim, bu gün Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhu sizləri qane edirmi?***

-Vətənpərvərlik ruhu - candan-qandan qaynayaraq təzahür edən yüksək mənəvi hissdir. Bu, eyni zamanda hər bir xalqın milli ruhunu, milli kimliyi və dəyərlərini əks etirən kodekslər məcmusudur. Millətini və dövlətini canından artıq sevən vətənpərvər Azərbaycan övladları tarixə şanlı səlnamələr yazmışlar. Onlar öz adlarını zamanın yaddaşına həkk etmişlər. Azərbaycan sevgisi və eşqini qəlbində əbədiyyətə aparan həmvətənlərimiz bizim qürur yerimizdir. Milli-mənəvi şüura, əxlaqi kodekslərə sahib olmadan şanlı əbədiyyət qazanmaq mümkünsüzdür. İlk sualınıza obrazlı cavabım belə oldu. Etiraf edim ki, bu sual çox geniş yanaşma tələb edən, bütün dövrlər üçün aktual olan əhəmiyyətli müzakirə mövzusudur. Bu mövzuda danışılası, bölüşülesi düşüncələrim çoxdur. Vətənə və xalqa sonsuz məhəbbət hissinin yüksək təzahürləri Ulu Öndər Heydər Əliyevin həyatında əks olunmuşdur. Vətənpərvərlik ruhunun yüksəldilməsi işində Ümummilli Liderin irsi nümunədir və daima təbliğ olunmalıdır. Müstəqil Dövlətimizin memarı Heydər Əliyevin həyatı, fədakar işi vətənpərvərlik ruhunun təcəssümüdür. Onun irsi bizlər üçün məktəbdir. Fenomenal tarixi şəxsiyyətin aşıladığı Azərbaycançılıq ideyaları xalqa və dövlətə bağlılıq hissimizi yüksəldir. Vətənə Heydər Əliyev məhəbbətindən nümunə götürərək, dinamik inkişaf naminə Onun fədakar xidmətlərini davam etdirməyə borcluyuq.

***-Gənclərin hərbi vətənpərvərlik ruhunun artırılması istiqamətində gənclər təşkilatlarının fəaliyyəti qaneedici sayıla bilərmi və gənclər təşkilatları daha hansı addımlar atmalı, layihələr həyata keçirməlidirlər?***

-Özünü şəxsiyyət olaraq təsdiq edən hər bir Azərbaycan vətəndaşı milli qürur və atributların, milli dəyərlərin qorunması işinin əsgəri olmalıdır. Bu işi şərəfi qədər uca tutmalıdır. Milli düşüncə və şüur yüksəldikcə vətənpərvərlik ruhu da artır. Bu ideologiyanın möhkəmlənməsi vacibdir. Yeniyetmə və gənclərdə vətənpərvərlik hissini kiçik yaşlardan formalaşdırmaq lazımdır. Məktəbəqədər tərbiyə-tədris müəssisələri bu istiqamətdə əhəmiyyətli yer tutur. Məktəbə qədəm qoyan kiçik yaşlı övladlarımız milli kimliyimiz barədə məlumatlı olmalıdır. Həmçinin ailələrimizin bu işdə məsuliyyəti böyükdür. Sosial problem və tələbatların fonunda bu vəzifə kənarda qalmamalıdır. Aktuallıq və əhəmiyyətlilik dərəcəsinə görə bu mövzu diqqətdə saxlanılmalıdır. Hərbi vətənpərvərlik ruhunun artırılması mövzularına davamlı olaraq gündəmdə yer verilməlidir. Bu istiqamətdə gənclər təşkilatları ilə yanaşı cəmiyyətin bütün sferalarında paralel fəaliyyət aparılmalıdır. Hərbi vətənpərvərlik mövzusunda görüşlərin təşkili, layihələrin hazırlanması və həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir. Belə tədbir və layihələr alqışlanmalıdır. Bu yöndə fəaliyyətə dəstək hər birimizin vətəndaşlıq borcudur. Hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi işinə sərf olunan diqqət və zəhmət gələcək nəsillərin mənəvi tərbiyəsində əsaslı təməldir.

***-Xaricdə təhsil alan gənclərimiz nə dərəcədə vətənpərvərdirlər?***

-Xaricdə təhsil alan hər bir Azərbaycan gənci öz dövlətini və xalqını təmsil etdiyini bilir. Bu məsuliyyətin nə qədər şərəfli olduğunu dərk edir. Onlar təhsil və biliklər əldə etməklə yanaşı ölkəmizi layiqincə təmsil etməkdədir. Milli-mənəvi dəyərlərimizin qorunması və təbliği işində vətənpərvər Azərbaycan gənclərinin mühüm rolu vardır. Xalqımızın qədim tarixi və ənənələri, zəngin mədəniyyəti, incəsənəti və ədəbiyyatı vardır. Bütün bunların daha geniş sferada təbliği üçün xaricdə təhsil alan gənclərimiz müxtəlif layihələr həyata keçirirlər. Bu addımlar təqdirəlayiqdir və alqışlanmalıdır. Belə tədbirlər əsasən gənclərin öz təşəbbüsləri sayəsində reallaşır. Hansı ölkədə təhsil alması və yaşamasından asılı olmayaraq, gənclərimizin vətənpərvər fəaliyyəti fərəh və qürurverici haldır.

***-Sizcə, gənclərin vətənpərvərlik ruhunun artırılması üçün maarifləndirici proqramlar, verilişlər daha çox hazırlanmalıdırmı?***

-Əlbəttə. Düzgün təşkil olunan təbliğat və təsirli ideologiya - vətənpərvərlik ruhunun artırılması üçün əhəmiyyətli vasitədir. Bu mövzularda maarifləndirici veriliş və proqramların rolu danılmazdır. Televiziya və radio kanalları bu mövzularda veriliş və proqramların hazırlanmasına xüsusi önəm verməlidir. Təəssüf ki, belə əhəmiyyətli mövzular bir çox hallarda kənarda qalır. Əvəzində televiziya-radio kanallarında heysiyyata toxunan, bayağı mövzuda veriliş və şoular təşkil olunur. Əlbəttə, əyləncəli proqramlar da lazımdır. Amma vətənpərvərlik ruhunun artırılması mövzusunda maarifləndirici veriliş və proqramlar üstünlük təşkil etməlidir.

***-Gənc nəslin milli mənlik şüurunu inkişaf etdimək üçün hansi işlər görülməldir?***

-Belə vacib və yüksək əhəmiyyət kəsb edən mövzuda tutarlı suallar qoyduğunuza görə təşəkkürümü bildirirəm. Hesab edirəm bu sual əvvəlkiləri tamamlayır. O cümlədən mövzunun kökünü və mahiyyətini daha qabarıq göstərir. Milli mənlik şüuru - hər kəsin milli ruhuna xas xüsusiyyətlərini əks etdirir. Həmçinin layiqli vətəndaşlıq etalonunu müəyyən edir. Milli mənlik şüuru yüksək olan insanlar xalqı üçün seçilənlər sırasını təşkil edir. Belə şüura sahib gəncin layiqli vətəndaş olacağı şübhəsizdir. Milli mənlik şüuru yüksək olan gənc dövlətçiliyə xidmət yolunda enerji və potensialını bütünlüklə ortaya qoyacaqdır. Dövlətçiliyə sadiq və sədaqətli gənclər yetişməsi üçün milli mənlik şüurunun inkişaf etdirilməsi mütləqdir. Milli mənlik şüuru yüksək olan gənclərə diqqət yetirilməsi, irəli çəkilərək etimad göstərilməsi hamını sevindirir. Cənab Prezidentin insan kapitalına verdiyi dəyər və önəm gənclərdə yüksək ruh və inamın yaranmasına səbəb olmuşdur. Layiqli gənclərə Cənab Prezident tərəfindən daha böyük etimad göstərilməkdədir. Gənc nəslin milli mənlik şüurunu inkişaf etdirmək üçün Ölkə Rəhbərinin addım və təşəbbüsləri stimullar yaratmışdır. Bundan yaxşı iş ola bilməz.

Yazı Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilmişdir